**Avtomobil qəzalarının baş vermesinin əsas səbəblərindən biri – avtomobilin sərxoş halda idarə olunmasıdır!**

Sürücü avtomobili sərxoş vəziyyətdə idarə etməklə hərəkət zamanı digər yol iştirakçılarının da həyatlarını təhlükə altında qoyaraq qəza vəziyyəti yaradır.

Alkoqollu içki qəbulu nəinki yol-nəqliyyat hadisələrinin yaranması ehtimalını artırır, həmçinin tədqiqatlar göstərir ki, sərxoş sürücülər arasında travmalar həm çoxluq təşkil edir, həm də daha ağır formada olur. Bu da onların yolda hərəkət zamanı vəziyyəti düzgün qiymətləndirə bilməmələri səbəbindən irəli gəlir.

## Dövlət Yol Polisi:

2016-cı ildə Azərbaycanın avtomobil yollarında nəqliyyat vasitələrinin **sərxoş vəziyyətdə idarə olunması** səbəbindən ölümlə və ya bədən xəsarəti alınması ilə nəticələnən **37 hadisə** baş vermiş, nəticədə **18 nəfər ölmüş, 34 nəfər** isə **yaralanmışdır**. Belə hadisələrin 78,4 faizi minik avtomobillərinin sürücüləri tərəfindən törədilmişdir.

( http://www.stat.gov.az/news/index.php?id=3488 )

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Bakı, AZ1122, H.Zərdabi küç., 96
431 12 72 430 52 85 office@isim.az
www.isim.az

Buklet "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiyanın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Fəaliyyət Planı"nın 9.2.1-ci bəndinə uyğun olaraq Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.

Azərbaycan Respublikası
**Səhiyyə Nazirliyi**

# Alkoqollu içki qəbul edib avtomobil idarə etməyin!



# Spirtli içkinin sürücülük qabiliyyətinə təsiri

**Yüngül/orta dərəcədə sərxoşluq halında:**

- qarşıdan gələn avtomobilədək olan məsafə düzgün qiymətləndirilmir
- hərəkət daha riskli və ehtiyatsız olur (məsələn, ötmə və dönmələrdə)
- təhlükəsizlik üçün məsafə gözlənilmir

**Ağır dərəcədə sərxoşluq halında:**

- qırmızı işığa, tormoz pedalının vaxtında basılmasına və dərhal dayanmaya reaksiya çətinləşir
- yolda olan təhlükəli məhdud zonalar düzgün qiymətləndirilmir
- avtomobil fənərlərinin uzaq məsafəli işığından yaxın məsafəli işığına uyğunlaşmada problem yaranır
- məsafəni təyin etməkdə çətinliklər olur

**Çox ağır dərəcədə sərxoşluq halında:**

- təhlükəli sürmə yaranır
- piyadalara, nəqliyyat vasitələrinə qədər olan məsafə səhv qiymətləndirilir
- ətrafı görmə qabiliyyəti zəifləyir, bu da eyni istiqamətdəki avtomobillər üçün təhlükəli ola bilər

**"Alkoqol koması"**

- yüksək təhlükəli sürmə yaranır
- ətrafa adaptasiya olmada problem yaşanır
- idarəetmədə səhvlər buraxılır (məsələn, tormoz və qaz pedalları səhv salınır)

**Yadda saxlayın:** hətta az miqdarda alkoqollu içki qəbulu ölümcül və dönməz hadisəyə səbəb ola bilər!



## Nəqliyyat vasitəsini sərxoş vəziyyətdə idarə etməyin!

Belə halda ayıq dostunuzun köməyindən və ya "ayıq sürücü" xidmətindən yararlanın.

**Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Nəqliyyat vasitəsini idarə edən şəxsin sərxoşluq vəziyyətinin müəyyən edilməsi Qaydaları" na əsasən:**

**2.1.** Nəqliyyat vasitəsini idarə edən şəxsin sərxoşluq vəziyyətinin müəyyən edilməsi aşağıdakı əlamətlərdən biri müşahidə olunduqda həyata keçirilir:

**2.1.1.** nəfəsindən alkoqollu içki qoxusu gəldikdə;

**2.1.2.** ayaq üstə sərbəst dayana bilmədikdə;

**2.1.3.** özünü idarə edə bilmədikdə.

**2.4.** Xüsusi texniki vasitə qanda alkoqolun konsentrasiyasının 0,3 promilli və daha artıq olmasını və yaxud narkotik vasitələrin, psixotrop və digər güclü təsir edən maddələrin qəbulunu göstərdiyi halda şəxsin sərxoşluq vəziyyətində olduğu hesab edilir.

**2.5.** Şəxsin xüsusi texniki vasitələrlə yoxlanılması zamanı alkoqollu içkidən istifadə edilməsi nəticəsində sərxoşluq vəziyyəti müəyyən olunarsa, polis əməkdaşları tərəfindən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 406-cı maddəsinə uyğun olaraq protokol tərtib edilir.

**Özünüzün və ətrafdakıların həyatını risk altında qoymayın!**

## Yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalar

**İnzibati Xətalar Məcəlləsi Maddə 333.1.**

## İXM-ə əsasən cərimənin miqdarı

Nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə **400 MANAT** məbləğində **CƏRİMƏ** edilir və ya nəqliyyat vasitələrini idarə etmə hüququ altı aydan bir ilədək müddətə məhdudlaşdırılır.

